# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# SƏRƏNCAMI

**Bakı şəhəri** **№ 1/25** **12 dekabr 2012-ci il**

## Beynəlxalq təcrübə nəzərə alınmaqla auditor xidmətinin inkişaf konsepsiyasının (2012-2020-ci illər) hazırlanması barədə

Ölkəmizdə həyata keçirilən uğurlu islahatlar bütün sahələrdə olduğu kimi auditor xidmətində də müsbət nəticələrin əldə olunmasına şərait yaratmışdır. Son illər ərzində Azərbaycanda beynəlxalq audit standartları tətbiq edilmiş, Azərbaycan Respublikasının Auditorlar Palatasının beynəlxalq əlaqələri daha da genişlənmiş, Palata Beynəlxalq Mühasiblər Federasiyasına (İFAC) və Avropanın Mühasiblər və Auditorlar Federasiyasına (EFAA) tam hüquqlu üzvülüyə qəbul olunmuş, dünyanın 25-ə yaxın ölkəsinin audit qurumları ilə işgüzar əlaqələr yaradılmış, auditor xidmətinin keyfiyyəti yüksəldilmişdir.

Bütün bunlarla bərabər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə bazar iqtisadiyyatına keçidin uğurla başa çatması, sərbəst bazar iqtisadiyyatı infrastrukturlarının yaradılması, şəffaflığın artırılması istiqamətində mühüm tədbirlər sisteminin həyata keçirilməsi, habelə ölkə iqtisadiyyatında müstəqil auditin əhəmiyyətinə göstərilən diqqət və qayğı, korrupsiyaya qarşı mübarizədə auditdən istifadənin ön plana çəkilməsi auditor xidmətinin daha da inkişaf etdirilməsini və beynəlxalq təcrübə nəzərə alınmaqla onun inkişaf prioritetlərinin müəyyən edilməsini zəruri edir.

Bütün bunları nəzərə alaraq və Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nda “Beynəlxalq təcrübə nəzərə alınmaqla auditor xidmətinin inkişaf konsepsiyasının (2012-2020-ci illər) layihəsinin hazırlanması”na dair 13.2-ci bəndini əsas tutaraq **qərara alıram:**

1. Beynəlxalq təcrübə nəzərə alınmaqla auditor xidmətinin inkişaf konsepsiyasının (2012-2020-ci illər) layihəsinin hazırlanması üçün Auditorlar Palatasının aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

| | |
|---|---|
| | ***İşçi qrupunun rəhbəri -*** |
| Qəşəm Bayramov | Auditorlar Palatası Aparatının rəhbəri |
| | ***İşçi qrupunun üzvləri -*** |
| Maarif Abbasov | Auditorlar Palatası Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsinin rəisi, Palata Şurasının üzvü |

| | |
|---|---|
| Səbuhi Gülməmmədov | Auditorlar Palatası Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsinin rəisi, Palata Şurasının üzvü |
| İlqar Vəliyev | "Ernst &Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin idarəedici partnyoru, Palata Şurasının üzvü |
| Namiq Abbaslı | Sərbəst auditor, Palata Şurasının üzvü |
| Aydın Kərimov | Auditorlar Palatası sədrinin müşaviri |
| Altay Cəfərov | Sərbəst auditor |
| Cəmaləddin Axundov | Auditorlar Palatası Aparatı rəhbərinin müavini |
| İlham Hacıəzizov | Sərbəst auditor |
| İslam Bayramov | "HLB Azərbaycan" MMC-nin direktoru |
| Mövlan Paşayev | "PRAYSVOTERHAUSKUPERS AUDİT AZƏRBAYCAN" MMC-nin baş təmsilçisi |
| Mübariz Hacıyev | Auditorlar Palatası Auditin təşkili və təhlili idarəsinin rəisi |
| Nəcəf Talıbov | Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri |
| Nuran Kərimov | "Deloitte &Touche"MMAC-nin direktoru |
| Samir Məmmədzadə | Auditorlar Palatası Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsinin şöbə müdiri |
| Samir Vəliyev | "Baker Tilly Audit Azərbaycan" MMC-nin partnyoru |
| Vəli Rəhimov | Auditorlar Palatası Maliyyə və təsərrüfat idarəsinin rəisi |
| Vüqar Əliyev | "KPMC Azərbaycan Limited" şirkətinin idarəedici partnyoru |
| Yunis Salayev | "BDO Azərbaycan" MMC-nin idarəedici partnyoru |
| Zamin Hüseynov | "MAK AZƏRBAYCAN LTD" MMC-nin direktoru |

2. İşçi qrupuna tapşırılsın ki:

- 2013-cü ilin III rübünün sonunadək auditor xidmətinin inkişaf konsepsiyasının (2012-2020-ci illər) layihəsini hazırlayıb təsdiq olunmaq üçün təqdim etsin.

- auditor xidmətinin inkişaf konsepsiyasının (2012-2020-ci illər) hazırlanması ilə bağlı hər ayın sonunda Auditorlar Palatasının sədrinə məlumat verilsin.

3. Bu sərəncamın icrasına nəzarəti özümdə saxlayıram.

**PALATANIN SƏDRİ** **V.NOVRUZOV**